# LANE KIRKLAND ADINA TƏQAÜD PROQRAMI

## Polşa-Amerika Azadlıq Fondu

Proqramın təsisçisi

və

## Dəyişikliklərin Liderləri Fondu

Proqramın administratoru

### Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya və Ukraynadan olan namizədlər üçün

**Polşada 2017-2018 tədris ili üçün**
**növbəti Lane Kirkland təqaüd müsabiqəsini açıq elan edir.**

Lane Kirkland adına təqaüd proqramı ölkədə və regionda demokratiyanın, iqtisadiyyatın və vətəndaş cəmiyyətinin inkişafına maraq göstərən ali təhsilli gənc liderlərin yetişməsinə ünvanlanıb. Proqram çərçivəsində Polşa universitetlərində 2 (iki) semestr 5 Polşa təhsil ocaqlarında (Varşava, Krakov, Vroclav, Poznan, Lublin şəhərlərində) və ən azı 2 həftə dövlət idarələrində və ya özəl sektorda peşəkar təcrübə əldə etmək

Təhsilini və proqramdakı fəaliyyətini uğurla bitirdikdən sonra öz vətəninə geri qayıdaraq əldə etdiyi təcrübə və bilikləri öz ölkəsində tətbiq etməyə həvəsli namizədlər üçündür.

**<u>İXTİSASLAR</u>**

:

- İqtisadiyyat və idarəetmə;
- Administrasiya / menecment (biznes, QHT, mədəniyyət, ətraf mühit, səhiyyə);
- Dövlət idarəetməsi;
- Hüquq;
- Sosial elmlər (sosial psixologiya, sosiologiya);
- Siyasi elmlər və beynəlxalq münasibətlər;
- Siyasi İnkişaf və humanitar yardım.

Diplomu əldə etmə və programı uğurla bitirmək üçündiplom işinin hazırlanması və müdafiəsi şərtdir. Diplom işi praktiki və ya elmi xarakter daşıya bilər.

**<u>L. KIRKLAND TƏQAÜDÜNÜN MALIYYƏLƏŞDIRMƏ ŞƏRTLƏRI</u>**
**<u>MALİYYƏ ŞƏRTLƏRİ:</u>**

-Təqaüd: 1800 PLN aylıq ödənilir (9 ay müddətində).
Bundan əlavə proqram administratoru (4200 zlot-a dək aylıq):

-yaşayış yeri ilə təmin edir (9 ay müddətində)
-sığorta bədbəxthadissəyə və şəxsi sağlamlıq
-polşaya səfər vəgeri dönmə xərcləri (müəyyən edilmiş limitlərə dair)
-şəhərdaxili nəqliyyatlar: avtobus, tramvay, metrolardan istifadə aylıq biletlərə əsasən
-viza xərcləri
-elmi kömək vələvazimatlar (2700 zlot dək)
-elmi konfrans və milli-mədəniyyətimiz tanıtma integrasiya tıdbirlərində içtirakı üçün
Polşa dili kursu (oktyabr-iyun aylarında)

**TƏQAÜD PROQRAMI:**

- Proqramın açılışı (2018-ci ilin sentyabr ayının II yarısı) İnformasiya-hazırlıq kursu (8-10 gün);
- Dərslər (2 semestr) Varşava, Krakov, Poznan, Vroclav və Lublin şəhərlərində yerləşən Polşanın ən böyük ali təhsil müəssisələrində keçirilir;
- Diplom və semestr işinin hazırlanması;
- Tədris ili ərzində bütün təqaüdçülərin iştirakı ilə 3-4 inteqrasional görüşlər;
- Liderlərin fərdi inkişaf üçün təlimlər və polşa dili kursu;
- Praktika/staj (2-4 həftə);
- Proqramının yekunlaşdırma tədbiri və diplomlarla təltif olunma mərasimi (2018-ci il, iyun ayının sonu, Varşava).

**KİMLƏR MÜRACİƏT EDƏ BİLƏR?**

Kirkland proqramı aşağıdakı sahələri təmsil edən şəxslər üçün açıqdır:

- Ekspertlər, siyasətçilər, dövlət işçiləri;
- Sahibkarlar, menecerlər;
- QHT rəhbərləri, mədəniyyət işçiləri və fəal vətəndaşlar;
- Tədqiqatçılar, universitet müəllimləri, alimlər;
- Jurnalistlər.

**KRİTERİYALAR:**

Namizədlər aşağıdakı tələblərə cavab verməlidirlər:

- Yuxarıda sadalanan ölkələrin birində daimi yaşamalı və həmin ölkənin vətəndaşı olmalı (qeyd: Polşada daimi yaşamaq hüququ əldə etmiş şəxslər Kirkland təqaüd proqramına müraciət edə bilməzlər);
- Ali təhsilini bitirmiş (magistr dərəcəsi);
- Yaş həddi 35 (əsaslandırılmış halda 40 yaş);
- Minimum 2 il iş təcrübəsi.
- Minimum 2 il əvvəlki xarıcı təqaüd fasilə, davamlılıq 6 aydan uzun sürən təqüdlər
- Polyak dilini akademik səviyyədə (B1) bilmək (dərslərdə və mühazirələrdə iştirak, həmçinin diplom işini yazacaq səviyyədə);

- Təhsil poldyak və ya ingilis dilində həyata keçirilir (Ukrayna və Belarusdan olan  namizədlər tədris dilini ingiliscə seçə bilməzlər (bu seçim zamanı namizəd tərəfindən həmin dildə konkret kurs seçilməli və qeyd olunmalıdır). Bu halda B1 səviyyəli ingilis dili, həmçinin A1 (başlanğıc) səviyyəli polyak dili də tələb olunur ; (intervyununn motorik hissesini keçən namizədlər yetərincə dil bilməsələr onlar üçün dil öyrənmək üçün əlavə (program Administratoru tərəfindən  materiallar təşkil olunur) dil imtahanı iyul-avqust 2018-ci ildə təşkil olunacaq.

  Namizədlər Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova və Rusiya planlaşdırdığı hər hansı universitetin konkret tədris planını göstərməlidi, ingilis dili bilik səviyyəsi B2 olmalıdı və A1 səviyyəsində polyak dilini bilməlidir. intervyununn motorik hissesini keçən namizədlər yetərincə polyak dilini bilməsələr onlar üçün dil öyrənmək üçün əlavə (program Administratoru tərəfindən  materiallar təşkil olunur) dil imtahanı iyul və avqust 2018-ci ildə təşkil olunacaq.

**ÜSTÜNLÜK VERİLƏCƏK NAMIZƏDLƏR:**

- Namizədər öz icmasında professional və sosial sahədə aktiv olmalıdır;
- Namizədlər konkret nailiyyətlərə malik olmalıdır;
- Namizədlər dah öncə Polşada təhsil almış olmamalıdır
- Namizədlər təhsili polyakca seçənlər.

**SEÇİM PROSESİ:**

Seçim üç mərhələdən ibarətdir və bütün ölkələr üzrə ümumilikdə 45 nəfərə yaxın yüksək göstərici əldə etmiş namizədlər aşağıdakı mərhələlər üzrə seçilir:
I mərhələ – müraciətlərin ümumi qiymətləndirilməsi.
II mərhələ – müraicət layihələrinin həmin sahələrin mütəxəssisləri tərəfindən qiymətləndirilməsi.
III mərhələ – müsahibə (30.03-30.04.2018-ci il tarixləri üçün planlaşdırılır).

2018 Mart ayının sonunda III mərhələyə keçmiş namizədlər elektron poçt vasitəsilə məlumatlandırılacaqlar. Müsabiqənin nəticəsi haqqında məlumat 2018 iyun ayında elektron poçt vasitəsilə namizədlərə göndəriləcək.
Proqramın administratoru seçilmiş bəzi namizədin polyak dilini qiymətləndirmək məqsədilə iyul və avqust aylarında, Polşanın diplomatik nümayəndəliklərində əlavə imtahan vermə imkanı təşkil olunacaq iyul və avqust aylarında 2018.

**TƏLƏB OLUNAN SƏNƏDLƏR:**

1. Elektron müraciət forması (elektron olaraq doldurulur):
   - Şəxsi məlumat anketi
   - Layihəninin əsaslandırılması – Kirkland proqramında iştirakın detallı izahı, əsaslandırılması, Polşada qaldığınız dövrü əhatə edən və proqramı bitirdikdən sonra olan planlarınız (4000-6000 simvol, boşluqlarla birgə).
2. İki tövsiyə məktubu. Namizədin kvalifikasiyası, əldə etdiyi nailiyyətlər, professional sahədə əldə edəcəyi inkişafı və gələcək professional və ya sosial fəaliyyəti təsvir olunmalıdır (polyak, rus və ya ingilis dilində) və elektron poçtla göndərilməlidir.
3. Ali təhsil diplomunun (və ya elmi dərəcə dilomunun) surəti elektron poçt vasitəsilə göndərilməlidir.

**MÜRACİƏT QAYDASI:**

Daha ətraflı məlumat və elektron müraciət formasını doldurmaq üçün proqramın saytına daxil ola bilərsiz:
**www.kirkland.edu.pl**

Müraciət forması yalnız *on-line olaraq* doldurulmalıdır.

Müraicət forması tamamlanıb daxil edildikdən sonra sistem tərərfindən ekranda təsdiq səhifəsi göstərilir. Həmin təsdiq səhifəsi çap olunmalı, çap edilmiş formaya fotoşəkil əlavə edilməli, imzalanmalı və poçt vasitəsi ilə Kirkland Proqramına göndərilməlidir.

Tövsiyə məktubları və ali təhsil haqqında diplomun sürətini elektron poçt vasitəsilə bu ünvana göndərməyiniz xahiş olunur: **kirkland@kirkland.edu.pl**

## MÜRACİƏT ÜÇÜN SON TARİX

Kirkland təqaüd müsabiqəsinə son müraciət tarixi: **1 mart 2018 il.**

**Son müraciət vaxtını keçmiş müraciətlərə baxılmayacaq.**

Proqramın himayədarı **Lane Kirkland** (1922-1999) uzun müddət Amerika Həmkarlar İttifaqının (AFL-CIO) rəhbəri, Polşa-Amerika Sahibkarlar Fondunun yaradılmasının təşəbbüskarlarından biri və İdarə Heyyətinin üzvü olub. 80-ci illərdə Polşanın "Həmrəylik" hərəkatını dəstəkliyib. O, digər Mərkəzi və Şərqi Avropa dövlətlərinin də azadlığını və demokratiyasının inkişafını anlayır və dəstəkləyirdi. Lane Kirkland Amerikanın "Azadlıq Medalı" və Polşanın "Ağ Qartal Ordeni" kimi yüksək fərqlənmə nişanları ilə təltif olunub.

## ƏLAQƏ

Fundacja Liderzy Przemian
(Dəyişikliklərin Liderləri Fondu)
www.leadersofchange.pl

Lane Kirkland adına təqaüd proqramı
Al. Jerozolimskie 133 m. 56, 02-304 Warszawa
E-mail: kirkland@kirkland.edu.pl
www.kirkland.edu.pl

**POLŞA-AMERİKA AZADLIQ FONDU (PAAF)**
**Proqram təsisçisi**

Fond öz fəaliyyətini 2000-ci ildə başlayıb. Fondun əsas məqsədi demokratiyanın,vətəndaş cəmiyyətinin möhkəmlənməsi, fərdi və sosial inkişaf üçün bərabər imkanlar, bazar iqtisadiyyatının inkişafı, eləcə də Mərkəzi və Şərqi Avropa ölkələrinin transformasiyasında Polşa təcrübəsinin paylaşılmasıdır. Fondun öz fəaliyyəti Polşa-Amerika Sahibkarlar Fondunun (PASF) gəlirləri vasitəsilə maliyyələşdrir. PASF tərəfindən Fonda indiyədək 250 mln ABŞ dollara yaxın ianə ayrılıb. 2000-ci ildən etibarən PAAF öz layihələrinin maliyyələşməsinə 100 mln ABŞ dollarından çox vəsait ayırıb. Fondun elan etdiyi layihələr Fond tərəfindən hazırlanmış kriteriyalara uyğun olaraq müxtəlif qeyri-hökümət təşkilatları tərəfindən icra edilib. Layihələr təhsil, demokratik ölkədə vətəndaş hüquqları, icma inkişafı, Polşa ilə təcrübə mübadiləsi kimi sahələri əhatə edir. Lane Kirkland təqaüd proqramı da 2000-ci ildə təsis edilib və PAAF-ın uzunmüddətli layihələrindən biridir.

Fond haqqında ətraflı məlumatları İnternet saytından əldə edə bilərsiz: http://www.pafw.pl

**DƏYİŞİKLİKLƏRİN LİDERLƏRİ FONDU / FUNDACJA LIDERZY PRZEMIAN**
Proqramın administratoru

Dəyişikliklərin Liderləri Fondu 2016-cı ilin Fevral ayında Polşa-Amerika Azadlıq Fondu tərəfindən təsis olunub. Fondun əsas vəzifəsi PAAF tərəfindən maliyyələşən uzun müddətli layihələrin idarə edilməsidir: Lane Kirkland adına təqaüd proqramı və Polşaya mübadilə səfərləri proqramı.

Fond həmçinin PAAF adından (Natolin Avropa Mərkəzi və German Marshall Fondu ilə birgə) Varşava Avro-Atlantik Yay Akademiyasının (WEASA) həmtəşkilatçılarından biridir.

Bu proqramlar yeni Fonda uzun illər boyu formalaşmış komandanın hesabına həvalə edilmişdir. Yaxın profilli proqramların birləşməsi fəaliyyətimizi genişləndirməyə və zənginləşdirməyə şərait yaradır. Biz, Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinin ictimai-aktiv vətəndaşlarına Polşa təcrübəsini öyrənmək üçün geniş imkanlar yaratmaq istəyirik. Elmi ocaqlarla, dövlət və QHT sektoru ilə əməkdaşlıq edərək təcrübə və təhsil mübadiləsi üçün yeni-yeni imkanlar təklif edə biləcəyimizə ümid edirik. Biz, dəyişikliklərin gücünə inanan insanların cəmiyyətini yaradırıq.

Fond haqqında ətraflı məlumatları İnternet saytından əldə edə bilərsiz: www.leadersofchange.pl